**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**ARXEOLOGİYA VƏ ETNOQRAFİYA İNSTİTUTU**

*Əlyazması hüququnda*

**ELGÜN MƏHƏMMƏDƏLİ OĞLU ASLANOV**

# AZƏRBAYCANIN QURUÇAY VƏ KÖNDƏLƏNÇAY HÖVZƏSİNİN IV-XIII ƏSR ARXEOLOJİ ABİDƏLƏRİ (FÜZULI BÖLGƏSININ MATERIALLARI ƏSASINDA)

**5505.02 – Arxeologiya**

**Tarix üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2016**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun "İlk orta əsrlər arxeologiyası" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Arif Məhəmməd oğlu Məmmədov**
*tarix üzrə elmlər doktoru, professor*

**Təvəkkül Rəsul oğlu Əliyev**
*tarix üzrə fəlsəfə doktoru*

**Rəsmi opponentlər:** **Qüdrət Seyfulla oğlu İsmayılzadə**
*tarix üzrə elmlər doktoru, professor*

**Bəhlul İmran oğlu İbrahimli**
*tarix üzrə fəlsəfə doktoru*

**Aparıcı elmi müəssisə:** Azərbaycan Dövlət Pedaqoji Universitetinin **"Ümumi tarix"** kafedrası

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutu nəzdindəki 5505.02 – "Arxeologiya" ixtisası üzrə tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən F/D. 01.171 saylı Dissertasiya Şurasının «_16___» ___03______ 2016-cı il tarixli iclasında saat «____» keçiriləcəkdir.

**Ünvan: AZ 1143, Bakı şəhəri, H.Cavid prospekti, 115**

Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat «____» _________ 2016-ci il tarixdə göndərilmişdir.

**F/D. 01.171**
Dissertasiya Şurasının
Elmi katibi, tarix üzrə
fəlsəfə doktoru: **Səfər Hüseyn oğlu Aşurov**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı**. Torpaqlarımızın böyük bir hissəsini işğal etmiş ermənilərin bu ərazilərin tarixən onlara məxsus olması haqqında qeyri-obyektiv, qondarma iddialarının əsassızlığını sübut etmək, onların beynəlxalq ictimai fikri çaşdırmağa yönəlmiş cəhdlərini puça çıxarmaq üçün Azərbaycanın Qarabağ bölgəsinin ayrılmaz tərkib hissəsi olan Quruçay və Köndələnçay hövzəsinin tarixi-arxeoloji və memarlıq abidələri baxımından kompleks tədqiqatlar əsasında obyektiv şəkildə araşdırılması mövzunun aktuallığını şərtləndirən əsas əlamətdir.

XX əsrin ortalarından başlayaraq Mil-Qarabağ bölgəsində fasilələrlə arxeoloji tədqiqatlar aparılır. Lakin, hövzənin daş, tunc və erkən dəmir dövrü ilə müqayisədə orta əsr abidələri kifayət qədər öyrənilməmişdir. Bir tərəfdən uzun illər ərazidə aparılan arxeoloji kəşfiyyat və qazıntı işləri zamanı hövzədə IV-XIII əsrlərə aid xeyli maddi-mədəniyyət nümunəsinin aşkarlanması, digər tərəfdən isə bəhs olunan ərazinin böyük bir hissəsinin işğal altında qalması və buradakı abidələrin dağılması ehtimalının yüksək olmasını nəzərə alaraq belə bir mövzunun ayrıca tədqiqat obyekti kimi seçilməsinə ehtiyac duyulur. Azərbaycan arxeoloqları tərəfindən işğaldan əvvəl həmin bölgədə aparılan arxeoloji qazıntılar zamanı aşkarlanmış maddi mədəniyyət qalıqları, həmçinin müstəqillik illərindəki tədqiqatların nəticələri ayrı-ayrı məqalələrdə, hesabatlarda əksini tapsa da, sistemli şəkildə tədqiqata cəlb edilməmişdir.

Ermənilərin işğal altında olan ərazilərimizdəki toponimləri, qədim tarixi abidələri, ədəbiyyat, incəsənət əsərlərimizi özlərininki kimi təqdim etməkdən belə çəkinməmələri Quruçay və Köndələnçay hövzəsinin abidələrinin tarixi-arxeoloji tədqiqinin son dərəcə vacib və əhəmiyyətli olduğunu göstərir. Son illərdə azərbaycanlı alimlər tərəfindən Qarabağ bölgəsinin tarixinə aid müxtəlif kitabların

nəşr edilməsinə, ayrı-ayrı müəlliflər tərəfindən bölgənin sosial-iqtisadi və mədəni həyatına dair əsərlərin yazılmasına baxmayaraq, bütövlükdə Quruçay və Köndələnçay hövzəsinin bəhs etdiyimiz dövr tarixi (IV-XIII əsr) müstəqil tədqiqat mövzusu olaraq araşdırılmamışdır. Mövzunun aktuallığını şərtləndirən əsas əlamətlərdən biri də budur.

**Tədqiqat işinin xronoloji çərçivəsi.** Tədqiqat işinin xronoloji çərçivəsinin IV- XIII əsrləri əhatə etməsi arxeoloji qazıntılar zamanı aşkarlanmış maddi mədəniyyət qalıqlarının dövrü ilə əlaqəlidir. Tədqiqat mövzusunun IV əsrdən başlanması bu dövrdə Azərbaycanda yeni feodal münasibətlərinin formalaşması və ictimai həyatdakı dəyişikliklərlə bağlıdır. Bu xronoloji çərçivədə Azərbaycan sasanilərin, ərəblərin, xəzərlərin, Bizansın təsirlərinə və monqol işğallarına məruz qalmış, ərazidə müxtəlif ictimai-siyasi mühit meydana gəlmişdir. Tədqiqat işinin XIII əsrlə başa çatması monqol basqınları ilə bağlı bir çox abidələrin tənəzzül dövrünü yaşaması ilə əlaqəlidir. Belə ki, tədqiq olunan abidələrin əksəriyyətində IV əsrdən başlanan yaşayış XIII əsrə qədər davam etmişdir. Tədqiqat işində yeri gəldikcə ümumi məzmundan çıxış edərək bölgədə monqol ağalığı dövründə - Hülakülərin hakimiyyəti illərində baş verən ictimai-siyasi münasibətlərə də diqqət yetirilmişdir.

**Tədqiqatın obyekti.** Dissertasiya işinin tədqiqat obyektini Quruçay və Köndələnçay hövzəsinin IV-XIII əsrlərə aid yaşayış yerləri, qəbir abidələri, müdafiə tikililəri, eləcə də onlarda aparılan arxeoloji qazıntılar zamanı aşkarlanmış maddi mədəniyyət qalıqları və s. təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədini IV–XIII əsrlərdə Quruçay və Köndələnçay hövzəsində yaşayış məskənlərinin yaranma və tənəzzül səbəbləri, əhalinin təsərrüfat həyatı, dini görüşləri, sənətkarlığı, memarlıq abidələri, iqtisadi-ticarət əlaqələrinin tədqiqi təşkil edir. Yazılı mənbə məlumatları ilə arxeoloji qazıntıların nəticələrinin

uzlaşdırılması, onların müqayisəli təhlili və yekun nəticəyə gəlinməsi də tədqiqat işinin mühüm məqsədlərindəndir. Bunun üçün dissertasiya yazılarkən aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

- Quruçay və Köndələnçay hövzəsinin ilk və inkişaf etmiş Orta əsrlər tarixi-arxeoloji abidələrini təhlil etmək;
- Bölgənin maddi mədəniyyətini xarakterizə edərək IV–XIII əsr maddi mədəniyyəti haqqında ümumi təsəvvür yaratmaq;
- Quruçay və Köndələnçay hövzəsinin IV–XIII əsr arxeoloji abidələrinin xəritəsini tərtib etmək;
- Quruçay və Köndələnçay hövzəsi əhalisinin qonşu vilayətlər və ölkələrlə iqtisadi, ticarət, mədəni əlaqələrinin izlənilməsi;
- Yazılı mənbələr və arxeoloji materiallar əsasında ərazinin siyasi, sosial-iqtisadi və mədəni həyatı barədə müəyyən təsəvvür yaradılması;
- Quruçay və Köndələnçay hövzəsində bəhs olunan dövrdə sənətkarlığın inkişafının izlənilməsi və başqa regionların sənət sahələri ilə əlaqələrinin üzə çıxarılması;
- Maddi materialların təsnifatının verilməsi;
- Quruçay və Köndələnçay hövzəsi əhalisinin məişətinin, təsərrüfat həyatının öyrənilməsi;

Dissertasiya işlənərkən həmçinin, Quruçay və Köndələnçay hövzəsinin IV–XIII əsr maddi mədəniyyətinin öyrənilməsinin Azərbaycan tarixindəki yerinin müəyyənləşdirilməsi və tədqiq olunan dövrdə təsərrüfatın bütün sahələrindəki yeniliklərin aşkarlanması, şəhərlər, iqtisadi və ticarət əlaqələrinin ərazi üçün spesifik xüsusiyyətlərinin tədqiq olunması nəzərdə tutulmuşdur.

**Mövzunun mənbəşünaslıq bazası.** Quruçay və Köndələnçay hövzəsindəki tədqiqatların mənbəyini orta əsr müəlliflərinin müxtəlif vaxtlarda verdikləri məlumatlar, eləcə də əksəriyyətində müəllifin özünün də iştirak etdiyi arxeoloji qazıntılar zamanı aşkarlanmış maddi mədəniyyət qalıqları, yaşayış yerləri, qəbir abidələri, dini, memarlıq abidələri və s.

təşkil edir. Tədqiqat işi yazılarkən Quruçay və Köndələnçay hövzəsində müxtəlif vaxtlarda arxeoloji qazıntılar aparmış arxeoloqların hesabatlarından, mövzuya dair nəşr olunmuş monoqrafiya və məqalələrdən, foto materiallardan, rəsmlərdən və digər köməkçi vasitələrdən istifadə edilmişdir.

**Problemin öyrənilmə vəziyyəti.** Hövzənin IV–XIII əsr arxeoloji abidələri ayrı-ayrılıqda arxeoloqlar, tarixçilər və s. tərəfindən pərakəndə şəkildə qismən tədqiq olunmuşdur.

R.B.Göyüşovun "Qarabağın keçmişinə səyahət" (Bakı, 1993) əsəri Quruçay və Köndələnçay hövzəsinin tarixini öyrənmək üçün əhəmiyyətlidir. Əsərdə bölgənin orta əsrlər dövrünə aid məlumatlar da vardır. Kitabda Qarabağ bölgəsində, həmçinin Quruçay və Köndələnçay hövzəsindəki daş bütlər, məbədlər və digər maddi mədəniyyət abidələri haqqında dəyərli fikirlər söylənilir.

Quruçay və Köndələnçay hövzəsinin orta əsr abidələrinin tədqiqində Q.S.İsmayılzadənin əməyi böyükdür. Onun təxminən 20 ildən artıq bir dövrdə ərzində bölgədə apardığı arxeoloji qazıntıların nəticəsi ərazinin orta əsr tarixini öyrənmək baxımından mühüm əhəmiyyət kəsb edir. Qaraköpəktəpə və Yedditəpə kimi iri yaşayış yerlərində aparılmış arxeoloji tədqiqatlar nəticəsində bölgədən daha qədim dövrə aid maddi-mədəniyyət nümunələri ilə yanaşı orta əsrlər dövrünü özündə əks etdirən müxtəlif çeşiddə və xeyli sayda zəngin materiallar, qəbir abidələri, şirli və şirsiz gil qablar, sikkələr, bəzək əşyaları, əmək alətləri, sənətkarlıq nümunələri və s. aşkarlanmışdır.

Tədqiqatçının Şeyx Babı türbəsi, Əhmədalılar türbəsi və s. tarixi abidələr haqqında verdiyi məlumatlar da çox dəyərlidir.

2006-cı ildə Füzuli rayonundakı Zobucuq adlı yerdə Horadiz qəsəbəsinin salınması məqsədi ilə təmizləmə işləri aparılan zaman mina axtaranlar bu ərazidə təsadüfi arxeoloji tapıntılara rast gəliblər. Onlar tapdıqları XIII əsrə aid ox

ucluqları və döyüş alətləri, bəzək əşyaları, eləcə də Əmir Teymurun oğlu Sultan Şahruxun adına Təbrizdə kəsilmiş pul nümunələrini Horadiz qəsəbə tarix-diyarşünaslıq muzeyinə təhvil vermişlər.

Quruçay və Köndələnçay hövzəsində orta əsrlərə aid maddi mədəniyyət abidələri içərisində türbələr özünəməxsus yer tutur. Onlardan biri Şeyx Babı Yəqubi türbəsidir. İslam mədəniyyətini özündə əks etdirən bu tarixi memarlıq abidəsinin tədqiqi ilə həm yerli, həm də əcnəbi alimlər məşğul olublar.

XIX-XX əsrlərdə bu tarixi memarlıq abidəsinin tədqiqinə rus alimlərindən A.Brozqula və akademik T. Roskovski böyük maraq göstəriblər. Onlar öz tədqiqatlarında Şeyx Babı Yaqubi türbəsinin XII əsrə aid olduğunu qeyd ediblər.

Daha sonra rus tədqiqatçılarından professor V.Kraçkovskaya, XX əsrin 30-cu illərində şərqşünas alim M.Xanikov da Şeyx Babı Yəqubi türbəsində tədqiqatlar aparıblar və abidənin XII əsrə aid olduğunu təsdiqləyiblər. XX əsrin ikinci yarısında rus tarixçiləri ilə bərabər Azərbaycan alimləri (Ə.Salamzadə, Ş.Fətullayev, M.Neymətova, K.Məmmədzadə) Şeyx Babı Yaqubi türbəsinin tədqiqi ilə bağlı maraqlı araşdırmalar aparıblar. Müstəqillik dövründə isə türbədə və ətraf ərazilərin orta əsr abidələrində, o cümlədən Nağaratəpədə A.M.Məmmədov tərəfindən arxeoloji kəşfiyyat işləri aparılıb. Türbədəki tədqiqat işləri Xəqani Alməmmədov tərəfindən davam etdirilib.

Tədqiqat işi yazılarkən Z.M.Bünyadov, T.Ə.Bünyadov, İ.A.Babayev, A.B.Nuriyev, R.B.Göyüşov, R.M.Vahidov, M.N.Rəhimova, A.M.Məmmədov, Q.C.Cəbiyev, A.İ.Ələkbərov, M.C.Xəlilov, M.M.Mustafayev, Q.S.İsmayılov, M.S.Nemət, X.İ.Alməmmədov, Q.M.Əhmədov, T.R.Əliyev, A.A.Quliyev, B.İ.İbrahimli, E.Ə.Qasımov, Ə.H.Babayev, Ş.S.Əhmədov, Ə.Ə.Əliyev, C.V.Bağırzadə, S.K.Babayeva, G.O.Hacıyev,

E.C.Abbasova, V.A.Qasımlı, L.Ş.Əhmədova, R.N.Rüstəmov və digər tədqiqatçı alimlərin əsərlərindən istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işi Quruçay və Köndələnçay hövzəsinin IV–XIII əsr maddi mədəniyyətinin öyrənilməsinə həsr olunmuş ilk ümumiləşdirici elmi tədqiqat işidir. İlk dəfə olaraq Quruçay və Köndələnçay hövzəsinin IV–XIII əsr maddi mədəniyyət abidələri qruplaşdırılaraq kompleks şəkildə müqayisəli təhlil edilmiş, sənətkarlıq və təsərrüfatın bölgə üçün xarakterik xüsusiyyətləri müəyyənləşdirilmiş, ticarət əlaqələri, dini abidələri və s. öyrənilmişdir. Ayrı-ayrı tədqiqatçılar tərəfindən Quruçay və Köndələnçay hövzəsində (Füzuli rayonu) aparılmış arxeoloji qazıntıların nəticələrinin toplu şəklində ümumiləşdirilməsi tədqiqatın mühüm yeniliklərindəndir. Mövzu işlənərkən bölgədə aparılan arxeoloji qazıntıların nəticələrinə əsaslanaraq, IV–XIII əsrlərdə mövcud olmuş maddi mədəniyyətin özündən əvvəlki ənənələr əsasında inkişaf nəticəsində yaranmasına, varislilik prinsipinin izlənilməsinə və mövcud maddi mədəniyyətin yerli zəminlə bağlı xüsusiyyətlərinin yeni elmi dəlillərlə möhkəmləndirilməsinə xüsusi diqqət yetirilmişdir. Dissertasiya işlənərkən Azərbaycanın və qonşu ölkələrin həmdövr abidələrinin materialları ilə müqayisələr aparılmışdır.

**Tədqiqatın nəzəri-metodoloji əsası.** Dissertasiya işi yazılarkən Quruçay və Köndələnçay hövzəsinin IV–XIII əsr abidələrində aparılmış arxeoloji qazıntılar zamanı aşkarlanmış maddi mədəniyyət qalıqlarının öyrənilməsində müasir arxeologiya elmində qəbul edilmiş tipoloji təhlil metodu əsas götürülmüşdür.

Eyni dövrə aid müxtəlif tipli yaşayış yerlərinin öyrənilməsində, eləcə də aşkar edilən arxeoloji dəlillərin mənbə məlumatları ilə uzlaşdırılmasında müqayisəli təhlil metodundan istifadə olunmuşdur.

Quruçay və Köndələnçay hövzəsinin IV–XIII əsr maddi mədəniyyəti ilə Azərbaycanın digər həmdövr abidələrindən

əldə olunmuş maddi-mədəniyyət nümunələri arasındakı qarşılıqlı əlaqələrin öyrənilməsində müqayisəli analiz metodundan istifadə işin səmərəliliyini xeyli artırmışdır.

**Tədqiqatın praktiki əhəmiyyəti.** Tədqiqat işinin nəticələrinin

- Azərbaycanın arxeologiyasına dair ümumiləşdirici əsərlərin yazılmasında;
- Azərbaycan arxeologiyasının, Azərbaycan tarixinin, memarlıq və incəsənət tarixinin mühüm problem məsələlərinin yeni elmi aspektdə tədqiqində;
- Ali tədris müəssisələrində mühazirələrin tərtibində;
- Dərs vəsaitlərinin yazılmasında;
- Azərbaycanın maddi mədəniyyəti külliyatının hazırlanmasında;
- Tarix-diyarşünaslıq muzeylərinin yaradılmasında;
- Quruçay və Köndələnçay hövzəsi (Füzuli rayonu) üzrə elmi-kütləvi filmlərin çəkilişində;
- Orta məktəb şagirdlərində vətənpərvərlik hissinin təbliğində və möhkəmləndirilməsində;
- Tarix və memarlıq abidələrinin mühafizəsində;
- Turizmin inkişafında mühüm əhəmiyyəti ola bilər.

**Dissertasiyanın aprobasiyası.** "IV–XIII əsrlərdə Azərbaycanın Quruçay və Köndələnçay hövzəsininin maddi mədəniyyəti (Füzuli rayonunun materialları əsasında)" adlı elmi tədqiqat işinin əsas nəticələri AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun "İlk orta əsrlər arxeologiyası" şöbəsində müzakirə edilərək nəşr olunmuş məqalələrdə elmi ictimaiyyətə çatdırılmışdır. Tədqiqat işinin əsas yekunları ilə əlaqədar respublika və beynəlxalq əhəmiyyətli konfranslarda elmi məqalələrlə çıxışlar edilmişdir. Dissertasiya işi AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun "İlk orta əsrlər arxeologiyası" şöbəsində digər şöbələrin əməkdaşlarının iştirakı ilə müzakirə edilərək bəyənilmiş və müdafiəyə təqdim olunmuşdur.

**Dissertasiyanın quruluşu:** Dissertasiya giriş, üç fəsil, nəticə, ədəbiyyat siyahısı, ixtisar olunmuş sözlər, işə əlavə edilmiş tablo və şəkillərdən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Giriş** hissədə mövzunun aktuallığı, tədqiqatın xronoloji çərçivəsi, obyekti, məqsəd və vəzifələri, mövzunun mənbəşünaslıq bazası, problemin öyrənilmə vəziyyəti, tədqiqatın elmi yeniliyi, nəzəri-metedoloji əsası, dissertasiyanın aprobasiyası, quruluşu haqqında məlumat verilir.

**I fəsil "Yaşayış yerləri və qəbir abidələri"** adlanır. Bu fəsil 1.1. "Şəhər tipli yaşayış yerləri", 1.2. "Kənd tipli yaşayış yerləri" və 1.3. "Müdafiə istehkamları" adlı üç yarımfəslə bölünərək tədqiq edilir.

1.1. Şəhər tipli yaşayış yerləri. Quruçay və Köndələnçay hövzəsinin ərazisindəki şəhər tipli yaşayış yerləri özündən əvvəlki yaşayış məskənlərinin davamlı inkişafı nəticəsində meydana gəlmişdir. Onlar mədəniyyətin nisbətən yüksək inkişaf səviyyəsinə görə kənd tipli yaşayış yerlərindən fərqlənirdilər. Şəhər tipli yaşayış yerləri içərisində Qaraköpəktəpə, Yedditəpə, Amaras abidələri diqqəti cəlb edir.

Şəhər tipli yaşayış yerlərində aparılan arxeoloji tədqiqatların nəticələri sübut edir ki, ilk orta əsrlərdə Qarabağın və bütövlükdə Azərbaycanın siyasi və iqtisadi inkişafında mühüm rol oynayan feodal şəhərləri birdən-birə yaranmamışdı. Bu şəhərlərin iqtisadi əsasları hələ qədim dövrlərdə yaranmış yaşayış yerlərinin bünövrəsi üzərində meydana gəlmişdir.

IV-XIII əsrlərdə Quruçay və Köndələnçay hövzəsinin beynəlxalq ticarət yollarının kəsişdiyi ərazidə yerləşməsi şəhərtipli yaşayış yerlərinin inkişafına da müsbət təsir göstərib. Ərəb coğrafiyaçıları Bərdə şəhərindən cənub-şərqə doğru – Beyləqandan, Ərdəbildən keçərək Cənubi Azərbaycan və İranın başqa şəhərlərinə doğru istiqamətlənən ticarət yolunu qeyd edirlər. Buradan belə nəticəyə gəlmək olar ki, bu ticarət

yolu Bərdə - Tərtər - Ağdərə - Ağdam - Füzuli - Qubadlı - Yazıdüzü - Gorus - Şam - Urud - Vaqudi – Aqudi – Şaqat (Şalak) - Bazarçay - Zəngəzurçay aşırımı - Dərələyəz - Şərur - Sisacan –Dəbil kimi yaşayış məntəqələrinin yerləşdikləri ərazilərdən keçmişdir.

Quruçay-Köndələnçay hövzəsinin IV-XIII əsr şəhər tipli yaşayış yerləri içərisində Füzuli rayonun mərkəzindən 6-7 km şimal-qərbdə, Mirzəcamallı kəndi ərazisində yerləşən Yedditəpə yaşayış məskəni diqqəti cəlb edir. Abidə üzərində yaşayışın əlamətləri olan yeddi təpədən ibarətdir. Bu abidədə ilk arxeoloji qazıntı işləri XX əsrin 60-80-ci illərində Q.S.İsmayılzadə tərəfindən aparılmış, IV-XIII əsrlərə aid maddi mədəniyyət qalıqları aşkarlanmışdır. Buradakı qəbirlərdən bəzilərində skeletlər metal əşyalardan ibarət zəngin avadanlıqlarla müşayiət olunmuşdur. Təkcə bir qəbirdən çoxlu miqdarda dəmir silah nümunələri, tunc qablar, doqquz cüt tunc və gümüş sırğa, on ədəddən çox möhür, üzük, çoxsaylı əqiq, yaqut, şüşə muncuqlar aşkar edilmişdir. Maraqlıdır ki, bütün qəbirlərdə dəmir silah nümunələrinə (qılınc, xəncər, nizə və s.) rast gəlinmiş, az miqdarda saxsı məmulatı aşkar edilmişdir. Bunlar əsasən kiçik ölçülü bardaqlardır. Saxsı qabların bir hissəsi kəsmə, cızma naxışlarla, bəzi hallarda yapma düyməciklərlə bəzədilmişdir ki, bu da ilk orta əsr keramikasına xas olan əlamətlərdən hesab olunur.

Quruçay-Köndələnçay vadisinin IV-XIII əsr şəhər tipli yaşayış yerlərindən biri də çoxtəbəqəli Qaraköpəktəpə yaşayış məskənidir. Bölgənin əlverişli təbii-coğrafi şəraiti Qaraköpəktəpənin IV-XIII əsrlərdə də gur yaşayış məskənlərindən biri olduğunu təsdiq edir. Onun hündürlüyü 50 m, diametri şimaldan cənuba 220 metrə qədərdir. Abbasqulu ağa Bakıxanovun "Gülüstani-İrəm" əsərində bu abidə həm Qaraköpəktəpə, həm də Təxti-Tavus adları ilə qeyd olunmuşdur.

Qafqazın nadir, çoxtəbəqəli arxeoloji abidələrindən olan Qaraköpəktəpənin IV-XIII əsr tarixi barədə ərazidə aparılmış arxeoloji qazıntı işlərinin nəticələri daha dolğun məlumat verir. Q.S.İsmayılzadə XX əsrin ikinci yarısında bu abidədə 20 ilə yaxın ardıcıl tədqiqatlar aparmış, IV-XIII əsrlərə aid mədəni təbəqədə təsərrüfat və məişət tikililərinin qalıqları və zəngin maddi mədəniyyət nümunələri üzə çıxarılmışdır.

Arxeoloji qazıntılar zamanı Qaraköpəktəpə abidəsində III-IX əsrlərə aid 2 m-ə yaxın qalınlıqda mədəni təbəqə müəyyən edilmişdir. IX-X əsrlərdə Qaraköpəktəpənin əhalisinin Azərbaycanın ayrı-ayrı bölgələri, eləcə də Şərqin bir çox sənətkarlıq, ticarət və mədəni mərkəzləri ilə sıx iqtisadi mədəni əlaqələr saxladığı müəyyənləşdirilmişdir. IX əsrdən onun ətrafına hündür qala divarı çəkilmiş, içərisinə saxsı tünglər vasitəsilə su gətirilmişdir. Buradan həmçinin mülki və ictimai binaların qalıqları, bütöv sənətkarlıq məhəlləsi və geniş təndirxana üzə çıxarılmışdır.

Qaraköpəktəpənin IV-XIII əsrlərə aid təbəqəsindən tapılan maddi-mədəniyyət nümunələri onun orta əsrlərdə mühüm sənətkarlıq mərkəzlərindən biri olduğunu göstərir. Materialların xeyli qismi bədii dulus və şüşə məmulatından, eləcə də zərgərlik nümunələrindən ibarətdir. Qaraköpəktəpədə aşkar edilən maddi-mədəniyyət qalıqlarının xeyli hissəsi şirli qablarla təmsil olunmuşdur. Rəngarəng həndəsi və nəbati naxışlarla, müəyyən hallarda isə klassiklərin əsərlərindən götürülmüş sujetlərlə bəzədilən şirli qablar istehsalı Azərbaycanın bir çox orta əsr şəhər mərkəzlərində olduğu kimi Qaraköpəktəpə yaşayış yerində də bu dövrdə bədii sənətkarlığın əsas və mühüm sahəsini təşkil etmişdir. Qaraköpəktəpənin beynəlxalq ticarət yolu üzərində yerləşməsi onun həm də ticarət yollarının təhlükəsizliyinin təminatına xidmət etdiyini göstərir. Bu əlaqələrdə Xudafərin körpüsündən keçərək Qaraköpəktəpəyə, oradan isə Şimali Avropa ölkələrinə doğru davam edən orta əsr ticarət yolu

üzərində çoxlu karvansarayların və digər tikililərin qalması da bununla bağlıdır.

Arxeoloji tədqiqatların nəticələri göstərir ki, Quruçay və Köndələnçay hövzəsində indiki Böyük Bəhmənli kəndinin ərazisində digər bir şəhərtipli yaşayış məskəni də olmuşdur. Həmin ərazi yerli əhali arasında "Leyli hasarı" adı ilə tanınır. Əldə edilən arxeoloji materiallar yaşayış yerinin XI-XIII əsrlərə aid olduğunu və XII əsrdə xeyli tərəqqi etdiyini sübut edir.

Quruçay və Köndələnçay bölgəsində Bəhmən, Qarabağlar kimi digər qala şəhərlər də mövcud olmuşdur. Bu məlumatların reallığa söykəndiyini Arazboyu ərazilərdə aparılan kənd təsərrüfatı işləri nəticəsində aşkara çıxarılan yeni-yeni tarixi abidələrin qalıqları da göstərir.

1.2. Kənd tipli yaşayış yerləri. Quruçay və Köndələnçay hövzəsinin abidələri içərisində kənd tipli yaşayış yerləri daha çoxdur. Onlar ərazisinin kiçikliyi və mədəni təbəqələrinin zəifliyi ilə seçilir. Dissertasiyada kəndtipli yaşayış yerlərinin quruluşu, mədəni təbəqələrinin qalınlığı, əldə edilən arxeoloji materiallar haqqında ətraflı elmi məlumat verilmişdir. Bölgənin kəndtipli yaşayış yerləri içərisində Nağaratəpə, Kültəpə, Üç təpə və s. abidələr daha çox diqqəti cəlb edir.

Kültəpə yaşayış yeri Quruçay və Köndələnçay vadisinin cənub-şərq qurtaracağındadır.

Kültəpənin 1,5-2 km şərqindən Araz çayı axır. Quruçay və Köndələnçay isə burada Araz çayı ilə qovuşur. Mənbə məlumatları və arxeoloji tədqiqatlar sübut edir ki, tarixən Şərq ölkələrinə keçid Azərbaycanın Quruçay və Köndələnçay bölgəsinin bu hissəsindən başlanıb. Kültəpə yaşayış yerində insanların məskunlaşması onun yerləşdiyi əlverişli coğrafi-mövqeyi ilə izah olunur. Kültəpənin sahəsi 4 hektardan artıq ərazini əhatə edir. Yaşayış yeri dördkünc formada olub, yerləşdiyi təpənin hündürlüyü 15 m-ə yaxındır. Kültəpənin şərq tərəfindəki kəsiklərə əsasən onun süni təpə olduğu

müəyyənləşdirilmişdir. Abidənin qərb və cənub tərəflərində əkinçilik üçün yararlı geniş düzən sahələr vardır. Arxeoloji tədqiqatlar zamanı Kültəpə yaşayış yerinin IV-XIII əsrlərə aid mədəni təbəqələrindən xeyli sayda maddi mədəniyyət nümunələri tapılmışdır. Onlar əsasən müxtəlif formalı gil qablardan, məişət əşyaları, daşdan və metaldan hazırlanmış məmulatlardan ibarətdir.

Nağaratəpə kənd tipli yaşayış yeri Quruçay və Köndələnçay hövzəsində, Füzuli rayonunun Babı kəndinin mərkəzindən 35 km cənub-şərqdə, Araz çayının sol sahilində, düzən bir ərazidə yerləşmişdir. Bu yaşayış yeri Babı kəndindən keçən yolun sol tərəfində - təxminən 2 km məsafədədir. Abidə xarici görünüş baxımından nağaraya bənzədiyi üçün bu adla da tanınır. Kəşfiyyat xarakterli işlər nəzərə alınmasa, abidədə irimiqyaslı arxeoloji qazıntılar aparılmamışdır. Əldə edilən maddi mədəniyyət qalıqları, xüsusilə saxsı məmulatı abidənin III-IX əsrlərə aid kənd tipli yaşayış yeri olduğunu göstərir.

Horadiz qəsəbəsinin Zobucuq yaşayış yerindəki maddi mədəniyyətin zəifliyi onun kənd tipli yaşayış yeri olduğunu ehtimal etməyə əsas verir.

1.3. Müdafiə istehkamları III əsrdən etibarən Azərbaycanda formalaşmağa başlayan feodal istehsal üsulu Quruçay və Köndələnçay hövzəsində də torpaq sahələrinin müxtəlif adamların əlində cəmlənməsinə səbəb olurdu. Xeyli torpaq sahəsinə yiyələnə bilən iri feodallar varlandıqca qonşu mülkləri də özünə tabe etməklə nüfuzunu genişləndirməyə çalışırdı. İmkanlı şəxslərin digər qismi yararlı sahələrdən əkin məqsədi ilə istifadə etdiyindən öz sürülərini otarmaq üçün yeni-yeni otlaq sahələri ələ keçirmək məqsədilə nisbətən zəif qonşusunun torpağını tutmağa çalışırdılar.

İlk orta əsrlərin başlanığıcında ayrı-ayrı feodallara məxsus qalalarla yanaşı, daha böyük, ümumölkə əhəmiyyəti daşıyan müdafiə qurğuları da inşa edilirdi. Onlar feodal qalalarına nisbətən daha böyük olurdu. Burada daimi qoşun

hissələri saxlanılır və silah istehsalı üçün emalatxanalar fəaliyyət göstərirdi. Silah və ərzaq ehtiyatı saxlamaq üçün anbarlar tikilir, quyular qazılırdı. İctimai binalarla yanaşı, yaşayış evləri də inşa edilir, daimi, həm də gizli su ehtiyatı quyuları düzəldilirdi.

Tədqiqatlar göstərir ki, Quruçay-Köndələnçay hövzəsinin IV-XIII əsrlərə aid iri yaşayış yerlərinin ətrafında möhkəm müdafiə qalaları olmuşdur. Belə müdafiə divarlarına malik abidələrdən biri də Qaraköpəktəpə yaşayış məskənidir. Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, ilk orta əsrlərdə Qaraköpəktəpə sasanilərin mühüm strateji məntəqələrindən biri kimi tanınmışdır. Sasanilərin dövründə burada möhtəşəm tikililər ucaldılmış, müdafiə istehkamları yenilənmiş, çay daşları ilə döşənmiş geniş yol çəkilmişdir.

Qaraköpəktəpə həmçinin, Hülakü əyanlarının möhkəm müdafiə divarlarına malik olan iqamətgahına çevrilmişdir.

Quruçay-Köndələnçay hövzəsindəki qala yerlərindən biri də Füzuli rayonunun Mirzəcamallı kəndi ərazisindəki Yedditəpə yaşayış yeridir. Arxeoloji qazıntılar zamanı aşkarlanan silah nümunələri bu yerlərin əhalisinin döyüşkən ruha və zəngin mədəniyyətə malik olduğunu sübut etmişdir. Daimi yadelli hücumlarına məruz qalan Yedditəpənin ətrafında möhkəm müdafiə istehkamının qurulması zərurətdən irəli gəlmişdir.

**II fəsil "Qəbir abidələri və Memorial abidələr" adlanır və iki yarımfəsilə bölünür.**

2.1. Qəbir abidələri. Quruçay və Köndələnçay hövzəsinin IV-XIII əsr maddi mədəniyyət abidələri içərisində qəbir abidələrinin tədqiqi və dəfn adətlərinin izlənilməsi böyük əhəmiyyətə malikdir. Bölgənin ayrı-ayrı vaxtlarda müxtəlif imperiyaların təsir dairəsində olması, ilk orta əsrlərdə bir neçə dinin yayılması, həm də müxtəlif dəfn adətlərinin yaranmasına səbəb olmuşdur. Bu fikri müxtəlif dəfn adətlərini özündə əks etdirən maddi-mədəniyyət nümunələrinin qalıqları və qəbir

tipləri də sübut edir. Quruçay və Köndələnçay hövzəsinin qəbir abidələrində aparılan tədqiqatlar göstərir ki, IV-XIII əsrlərdə bölgədə bütpərəslik, xristianlıq və islam qaydalarına uyğun dəfn adətləri mövcud olmuşdur.

Füzuli rayonunun Araz Dilağarda kəndi ərazisində arxeoloqların "bütlər sarayı" adlandırdıqları abidədə apardıqları tədqiqatlar zamanı orada onlarla "daşa dönmüş, daşlaşmış insan skeletinə rast gəlinmişdir ki, bu da Qarabağın qədim sakinlərinin ibtidai dini təsəvvürləri ilə əlaqələndirilmişdir. Bütpərəstlik adətinin qalıqları Qarabağda eramızın IX-XI əsrlərinə kimi davam etmişdir. Xristian əhali hesab edirdi ki, bütlər qəbirüstü abidə olub, mərhumun qəbirdəki vəziyyətini təcəssüm etdirir. Ona görə də bütlərə toxunmurdular. Arxeoloji tədqiqatlar sübut etmişdir ki, həmin abidələr əsl bütlərin müəyyən dərəcədə dəyişilmiş formasından başqa bir şey deyildir. Bütün deyilənlərdən aydın olur ki, yerli əhali tərəfindən daşa dönmüş insanlar adlandırılan bu abidələr bütpərəstlik dini təsəvvürünün təcəssüm forması olub, insanın özünü ilahiləşdirdiyi bir dövrün məhsuludur.

XX əsrin 70-ci illərində Yedditəpə yaşayış yerindən 20-yə yaxın qəbir aşkar edilib öyrənilmişdir. Onların üstü iri sal daşlarla örtülmüşdü. Tədqiqatlara əsasən qəbirlərin V-VI əsrlərdə Quruçay və Köndələnçay vadisində yaşamış yerli əhaliyə məxsus olduğu müəyyən edilmişdir. Onlardan bəziləri gənc döyüşçülərə aiddir. Skeletlərin ayrı-ayrı sümükləri və bəzi insan kəllələrinin üzərində qalmış qılınc, ox və nizə çapıqları fikrimizi sübut edir.

Füzuli rayonunun Yuxarı Yağlıvənd kəndində tədqiq olunmuş düzbucaqlı formalı 9 daş sərdabə yonulmuş əhəngdaşından inşa edilmişdir və tağvari örtüyə malikdir. Quruçay və Köndələnçay hövzəsinin Qarabulaq çölündəki təpələrdən aşkar edilən qəbirlər də maraqlıdır. Tədqiqatlar Qarabulaq qəbristanlığının Qaraköpəktəpə sakinlərinə aid olduğunu söyləməyə əsas vermişdir. Bu baxımdan belə bir

nəticəyə gəlmək olar ki, Qarabulaq kurqanları üzərindəki məzarlıq monqolların Azərbaycanı işğal etməsinə qədər Qaraköpəktəpə sakinlərinin qəbristanlığı kimi fəaliyyət göstərmişdir.

IX-XIII əsrlərdə Quruçay və Köndələnçay hövzəsində yaranan dini abidələrin mühüm bir qismi islam dininin təsiri ilə meydana gəlmiş xanəgah, minarə və türbə tikililərindən ibarətdir

Xanəgah tipli dini tikililərin meydana gəlməsi müsəlman Şərqində sufi təliminin yayılması ilə bağlı olmuşdur. Xanəgah tipli dini abidələrin içərisində Füzuli rayonunun mərkəzindən 35 km cənub-şərqdə, Araz çayının sol sahilində, Babı kəndindəki kənd qəbiristanlığında yerləşən Şeyx Babı Yəqubi xanəgahı böyük tarixi əhəmiyyətə malikdir.

Müxtəlif dövrlərdə bu abidə tədqiqata cəlb olunub. Arxeoloji tədqiqatlar zamanı türbə kompleksinin xeyli hissəsi və bir neçə qəbir açılıb öyrənilmişdir. Araşdırmalar göstərmişdir ki, burada nüfuzlu və dövrün tanınmış insanları dəfn olunmuşlar.

IX-XIII əsrlərdə Quruçay və Köndələnçay hövzəsində üstü türbə formasında tikilmiş qəbirlərə də rast gəlinmişdir. Bölgədə XII-XIII əsrlərə aid maddi mədəniyyət abidəsi hesab olunan Əhmədalılar türbəsi, Mirəli türbəsi kimi tarixi memarlıq abidələri də özündə müsəlman memarlığının ənənələrini yaşadır.

2.2. “Memorial abidələr” adlanan II yarımfəsildə Quruçay və Köndələnçay hövzəsinin orta əsr abidələri içərisində xüsusi əhəmiyyəti olan - Şeyx Babı Türbəsi, Mirəli türbəsi, Əhmədalılar (Arğalı) türbəsi, Əhməd Soltan türbəsi kimi memorial tikililər haqqında məlumatlar verilmişdir.

**III fəsil “Təsərrüfat həyatı”** adlanır və dörd yarımfəslə bölünür.

3.1. Əkinçilik. Füzuli rayonunun yerləşdiyi təbii-coğrafi şərait, münbit torpağa malik Quruçay və Köndələnçay hövzəsi

IV-XIII əsrlərdə tədqiq etdiyimiz ərazilərdə əkinçiliyin inkişafı üçün əlverişli imkanlar yaratmışdır. Müxtəlif dənli bitkilər yetişdirilən bölgədə təkcə süni suvarılan əkin sahələri deyil, dəmyə əkin yerləri də öz məhsuldarlığı ilə seçilib. Bu dövrün əkin-biçin alətləri içərisində kotan, xış, oraq, dəryaz, kavahın və s. vardır. Quruçay və Köndələnçay hövzəsinin IV-XIII əsr abidələrində aparılan arxeoloji tədqiqatlar zamanı aşkarlanmış metal əkin və biçin alətləri, həmçinin buğda, arpa, çəltik, darı və s. qalıqları bölgədəki əkinçilik mədəniyyətinin səviyyəsinin göstəriciləridir.

3.2. Bağçılıq və bostançılıq. Kotandan istifadə Quruçay və Köndələnçayın münbit torpaqlarında bağçılıq, bostançılıq və tərəvəzçilik kimi yardımçı sahələrin inkişafına təkan verirdi. Yedditəpə, Kültəpə, Qaraköpəktəpə, Nağaratəpə kimi yaşayış yerlərində bağçılıq və bostançılıq təsərrüfatında istifadə olunan müxtəlif formalı alətlərə rast gəlinib. IX-XIII əsrlərdə hövzədə süni suvarma şəbəkələrinin genişləməsi bu sahələrin daha da yaxşı inkişaf etməsi və məhsuldarlığın artması üçün şərait yaratmışdır.

3.3. Maldarlıq. IV-XIII əsrlərdə Quruçay və Köndələnçay hövzəsi əhalisinin təsərrüfatında əsas yerlərdən birini də maldarlıq tuturdu. Təbii-coğrafi şərait burada yaylaq-qışlaq maldarlığının inkişafına zəmin yaradırdı. Arxeoloji qazıntılar zamanı aşkarlanmış osteoloji qalıqlar göstərir ki, maldarlıq təsərrüfatında qoyunçuluq xüsusi əhəmiyyət daşımışdır. Əldə edilən osteoloji qalıqlar əsasən iri və xırda buynuzlu heyvan sümüklərindən ibarətdir. Burada atçılıq, dəvəçilik kimi heyvandarlıq sahələri də mövcud olmuşdur.

3.4. Sənətkarlıq. Quruçay və Köndələnçay hövzəsində aparılan arxeoloji tədqiqatların nəticələri IV-XIII əsrlərdə ərazidə qara və əlvan metalların istehsalında, daşcilalamada və daşyonmada, gil qab-qacaq istehsalında yeni-yeni sənət sahələrinin əmələ gəlməsində, nəfis şüşə qab-qacaq hazırlanmanın öyrənilməsində, ağacişləmədə, toxuculuqda olan

yüksəlişdə, zərgərlik məmulatlarının hazırlanmasında, sümükişləmədə və s. sənət sahələrində əhəmiyyətli yüksəlişin olduğunu sübut edir.

3.4.1 Dulusçuluq. Quruçay və Köndələnçay hövzəsinin IV–XIII əsrlərə aid arxeoloji materialları içərisində dulusçuluq məmulatları üstünlük təşkil edir. Dulus məmulatlarını öz texniki xüsiyyətlərinə görə şirsiz və şirli qablara bölmək olar.

Şirsiz qablar əsasən III-VIII əsrlərə, şirli qablar IX-XIII əsrlərə aiddir.

Bardaqlar. Quruçay və Köndələnçay hövzəsində aşkarlanmış bardaqların boğazı uzun, ağzı dairəvi, gövdəsi bir qədər xaşaldır, yandan olan şaquli qulpu yuxarı tərəfdən qabın ağzına, aşağı tərəfdən isə onun çiyninə birləşdirilmişdir, oturacaqları yastıdır. Orta həcmli bardaqların ağzı iri, gövdələri xaşal, rəngi qara, boğazı isə gövdəyə tərəf bir qədər enlidir.

Sərniclər. Quruçay və Köndələnçay hövzəsindən aşkar edilən sərnic nümunələri əsas etibarı ilə ortahəcimli və sadə naxışlıdır. Bunların enli boğazı, iki qulpu və yastı oturacağı vardır. Qaraköpəktəpə yaşayış yerində tək qulplu sərniclərə də rast gəlinmişdir.

Sərniclərin əksəriyyəti yaxşı formalaşdırılmış və üstü hamarlanmışdır. Sərniclər xarici formasına görə həm tək qulplu, həm də iki qulplu olmaqla qulpları qabın ağzının kənarına bitişik olub, gövdələri yumurta şəkilli, oturacaqları isə yastıdır.

Küplər. IV-XIII əsrlərə aid küplərə Quruçay və Köndələnçay hövzəsinin Qaraköpəktəpə yaşayış yerində daha çox rast gəlinib. İlk orta əsr abidələrindən əldə edilmiş küplərin əksəriyyəti uzunsov olub, xaşal gövdəli, oturacağı düzdür. Küplərin gövdələrinin xaşal və iri olmasına baxmayaraq, oturacaqları çox kiçikdir. Küplərdən əsasən ərzaq, şərab, su və digər mayeləri saxlamaq üçün istifadə edilirdi. Qulpsuz iri küplər torpağa basdırılır, dəstəkli küplər isə ambarın içərisinə, otaqların künclərinə qoyulur və lazım

gəldikdə yeri dəyişdirilirdi. XI–XIII əsr küplərinin gövdəsi daha simmetrikdir. Boğaz hissələri uzundur. Üzərlərinə cızma naxışlar vurulmuşdur.

Dolçalar. IV-XIII əsrlərdə Quruçay və Köndələnçay hövzəsində geniş yayılmış gil qab nümunələrinin bir hissəsini dolçalar təşkil edir. Su üçün işlədilən kiçikhəcmli qara rəngli, üstü yaxşı cilalanmış dolçaların hündürlüyü 9-10 sm, ağzının diametri 5-6 sm , oturacağı isə 4-6 sm-dir. Bəzi dolçaların qulpu və ağzı cilalanmamışdır. Qulpları yarımdairəvi olan bu tip qabların oturacaqları yastı, gövdələri isə xaşaldır.
IX-XIII əsrlərə aid dolça tipli gil qablar əsas etibarı ilə maldarlıq təsərrüfatı ilə bağlı olub ağartı üçün istifadə edilirdi.

Dopular. Aşkar edilmiş dopu nümunələri xarici görünüşünə görə müxtəlif formalıdırlar. Onlar əsasən qulpsuz, kiçik və orta tutumludur. Dopuları xarici görünüşlərinə görə iki qrupa ayırmaq olar. Birinci qrupa boğazı azacıq boğmalı, gövdəsi isə xaşal dopular daxildir. İkinci qrupu isə üzərinə qazıma üsulu ilə bir-birinə paralel dairəvi xətlərlə naxış vurulmuş, hündür, darboğazlı, ortahəcmli dopular təşkil edir. Onların oturacağı yastıdır.

Camlar. Qaraköpəktəpə yaşayış yerindən tədqiqatlar zamanı IV-XIII əsrlərə aid müxtəlif formalı camlar aşkar edilmişdir. Onlar əsasən orta tutumlu olub, kiçik bir qulpla təchiz edilmişdir.

Qapaqlar. Quruçay və Köndələnçay hövzəsinin IV-XIII əsrlərə aid qazanlarının, küplərinin və camlarının özlərinə məxsus qapaqları olmuşdur. Yaşayış və qəbir abidələrindən tapılan gil qablar çeşid və həcmcə fərqli olduğu kimi, onlara məxsus qapaqlar da müxtəlifdir. IX-XIII əsrlərə aid qapaqlar ilk orta əsr qapaqlarından həm xarici görünüşünə, həm də naxışlarına görə fərqlənirlər.

Qazanlar. Quruçay və Köndələnçay hövzəsindən tapılan qazan nümunələri əsas etibarilə yarımşar formadadır, onların əksəriyyətinin dairəvi yastı oturacağı var. III–VIII əsrlərə aid

qazanlar əsasən əl ilə kobud şəkildə hazırlanmışdır. IX–X əsrlərdə isə vahid biçimli və şirli qazanlar çoxalır. Onlara dalğavari bəzəklərdən, çərtmə və xırda deşikllərdən ibarət naxışlar vurulur. XI–XIII əsr qazanlarının çiyin hissəsi daha çox naxışlanmış olur. Cəftəvari dəstəklər, zəncirvari kəmərlər bu dövr qazanları üçün xarakterikdir.

Çaynikvarı qablar. Kiçik həcmli, qara və qırmızı rəngdə olub, yastı oturacaqlıdırlar. Çaynikvarı qabların ağzı ellips formalıdır. Üstü yaxşı cilalanmışdır, qulpu yandandır. Çaynikvari qabların lüləsinin olması onların içərisindəki mayedən istifadəni asanlaşdırır. Hündürlükləri 15- 42 sm, gövdələrinin diametri 13-38 sm-dir.

Duz qabları. Quruçay və Köndələnçay hövzəsinin IV-XIII əsr abidələrindəki arxeoloji qazıntılar zamanı xeyli sayda müxtəlif formalı yaxşı hazırlanmış şirli və şirsiz gil duz qabları aşkarlanmışdır.

Zoomoof qablar. Quruçay və Köndələnçay hövzəsinin IV-XIII əsr zoomorf qabları xarici görünüşlərinə və hazırlanma texnikasına görə başqa gil məmulatından fərqlənir. Aşkar edilmiş zoomoorf qabların əksəriyyəti ev heyvanlarına oxşadılmışdır. Bir qismi quş və heyvan fiquru formasında hazırlanmış, digərləri isə ancaq qulpu və ağzı heyvana oxşadılmışdır. Heyvan təsvirlərindən – maral, keçi, şir və s. daha çoxluq təşkil edir. Heyvanların gil qablarda əks olunması dövrün sənətkarlarının təbiətə baxışlarının bədii ifadəsidir. Bunlar müxtəlif etiqad və inam nəticəsində meydana gəlmişdir. Sonradan isə insanlar sitayiş etdikləri və ovladıqları heyvanları, quşları məişətdə işlədilən qablar üzərində əks etdirməyə başlamışıar.

3.4.2. Metal məmulatları. Quruçay və Köndələnçay hövzəsində aparılan arxeoloji tədqiqatlar zamanı əldə edilən metal məmulatının qismən azlıq təşkil etməsi onların uzun müddət torpaq altında qaldığından erroziyaya uğraması ilə əlaqələndirilməlidir. Metal məmulatlarının qalıqları hövzənin

həm İlk orta əsr, həm də inkişaf etmiş Orta əsr abidələrinin əksəriyyətindən əldə edilmişdir. Onlar əsasən təsərrüfat alətləri, bədii sənət nümunələri, müxtəlif növ silahlar, məişət əşyaları, numizmatik materiallar, zinət əşyaları, maldarlıq təsərrüfatı ilə bağlı məmulatlar və s. ibarətdir. Dəmirçilik və misgərlik məmulatları çoxluq təşkil edir.

3.4.3. Şüşə məmulatı. Yedditəpədə mövcud olan qəbir abidlərində aparılan arxeoloji qazıntı işləri zamanı xeyli sayda şüşə qablar aşkar edilmişdir. Qəbirlərin birindən tapılan, oturacağı çıçək şəklində böyük ustalıqla qabarıq naxışlarla bəzədilmiş. kiçik ölçülü şüşə cam uzun müddət torpaq altında qalmasına baxmayaraq öz şəffaflığını və gözəlliyini saxlamışdı. Bu cam Quruçay və Köndələnçay hövzəsində şüşə istehsalının yaxşı inkişaf etdiyini göstərməklə bərabər, eyni zamanda bölgədə sənətkarlığın səviyyəsini bildirir. Bu qədim maddi mədəniyyət nümunəsi formasına görə Azərbaycanda bu tip ilk tapıntı hesab olunur.

Bəzi qəbirlərdə metal bəzəklərlə yanaşı təbii şəvə və şüşə muncuqlara rast gəlinmişdir. Tapılan üzüklərin əksəriyyətinin qaşı müxtəlif təsvirli kiçik möhürlərdən ibarətdir. Üzüklərdən birinin şüşə qaşında ikibaşlı qartal təsviri nəqş edilmişdir. Şüşə qaşlı üzüklərdə vəhşi heyvan təsvirləri də vardır. Qaraköpəktəpə yaşayış yerindən IV-XIII əsrlərə aid şüşə bilərziklər də aşkar edilmişdir. Bütün bu faktlar bir daha göstərmiş oldu ki, Quruçay və Köndələnçay hövzəsi IV-XIII əsrlərdə Azərbaycanın yaxşı inkişaf etmiş şüşə istehsalı mərkəzlərindən olmuşdur.

Quruçay və Köndələnçay hövzəsinin IV-XIII əsr abidələrində aparılan arxeoloji tədqiqatlar mühüm elmi **nəticələrə** gəlməyə imkan vermişdir.

- IV-XIII əsr abidələrinin ilk dəfə geniş planda və kompleks şəkildə araşdırılması nəticəsində bölgənin Azərbaycan tarixindəki yeri müəyyənləşdirilmişdir.
- İlk dəfə olaraq müəllif tərəfindən Quruçay və Köndələnçay

hövzəsinin IV-XIII əsr yaşayış yerlərinin daxili və xarici ticarətdəki mövqeyi üzə çıxarılmışdır. Müəyyən edilmişdir ki, bölgənin beynəlxalq əhəmiyyəti ticarət yolu üzərində yerləşməsi əlaqələrə müsbət təsir göstərmişdir.

- İlk dəfə olaraq müəllif tərəfindən IV-XIII əsr maddi-mədəniyyətinin varislilik, ənənəvilik əsasında davamlı şəkildə inkişaf etdiyi qənaətinə gəlinmişdir.
- Maddi-mədəniyyətdəki varisliliyə əsasən bölgə əhalisinin tərkibinin yekcins olduğu fikri ilk dəfə olaraq müəllif tərəfindən söylənilmişdir.
- İlk dəfə olaraq müəllif tərəfindən Quruçay və Köndələnçay hövzəsinin IV-XIII əsr abidələrinin kompleks tədqiqi nəticəsində bölgədə sənətkarlığın, memarlığın, şəhərsalmanın inkişafına təsir göstərən səbəblər açıqlanmışdır. Dulusçuluq, metalişləmə və şüşə istehsalı sahəsindəki yerli xüsusiyyətlər üzə çıxarılmışdır.
- Bölgədə əkinçiliyin və maldarlığın inkişaf səviyyəsi və ona səbəb olan amillər arxeoloji tədqiqatların nəticələrinə əsasən araşdırılmışdır.
- Qaraköpəktəpə, Yedditəpə, Amaras, Kültəpə, Nağaratəpə və s. kimi abidələrin IV-XIII əsr mədəni təbəqələrindən aşkarlanmış maddi-mədəniyyət qalıqlarının elmi təhlili əsasında həmin yaşayış yerlərinin orta əsr yaşayış yerləri sırasındakı mövqeyi müəyyən edilmişdir.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı elmi məqalələrində öz əksini tapmışdır.**

1. Qarabağın keçmiş tarixi dövrünə baxış // Naxçıvan Dövlət Universiteti. Elmi əsərlər toplusu Naxçıvan, 2015, №2, səh. 67 - 70
2. Quruçay və Köndələnçay hövzəsində ilk orta əsrlər dövründə dulusçuluq sənəti // Azərbaycan Dövlət İqtisad Universitetinin elmi xəbərləri. Bakı, 2014, II cild səh. 191-196
3. Quruçay və Köndələnçay hövzəsinin tarixi // Gəncə Dövlət

Universitetinin elmi xəbərlər toplusu. Gəncə, 2014, №1, səh. 161 - 164
4. IV-XIII əsr Quruçay və Köndələnçay hövzəsinin qəbir abidələri // Bakı Dövlət Universiteti. Tarix və onun problemləri jurnalı. Bakı, 2015, №1, səh. 322 - 329
5. Qarabağ sözünün etimologiyası haqqında // Bakı Slavyan Universiteti. Azərbaycanşünaslığın aktual problemləri. Ümumilli lider Heydər Əliyevin anadan olmasının 92-ci il dönümünə həsr olunmuş VI Beynəlxalq elmi konfuransın materialları, Bakı, 5-7 may 2015, I hissə, səh. 98-100
6. İlk orta əsrlərdə Quruçay və Köndələnçay bölgəsində bağçılıq və bostançılıq təsərrüfatı // Gəncə Dövlət Universiteti. Qafqaz tarixinin aktual problemləri. Beynəlxalq elmi konfuransın materialları, Gəncə, 15-16 oktyabr 2015, I cild, səh. 51-54
7. IV-XIII əsrlərdə Azərbaycanın Quruçay və Köndələnçay bölgəsində şüşə məmulatı istehsalı haqqında // Davamlı inkişafın milli modeli və strategiyası. Mingəçevir, 27-28 noyabr 2015, səh, 322-324
8. Про становище скотарських господарств у Гуручайському і Кьонделенчайському регіонах Азербайджану в IV-XIII століттях // Науковий вісник збірник наукових праць Випуск 102 (№ 11). Украина, Київ, 2015, ст, 133-135

*Эльгюн Мухаммадали оглы Асланов*

**АРХЕОЛОГИЧЕСКИЕ ПАМЯТНИКИ БАССЕЙНА ГУРУЧАЙ И КЁНДЕЛЕНЧАЙ IV-XIII ВЕКОВ АЗЕРБАЙДЖАНА**
**(на основе материалоа Физулинского региона)**

## РЕЗЮМЕ

Диссертационная работа, написанная на основе письменных источников и археологических материалов, посвящена исследованию археологических памятников бассейна Гуручай и Кёнделенчай IV-XIII веков.

Диссертация состоит из введения, трех глав, заключения, списка использованной литературы, принятых сокращений и иллюстраций.

Во введении нашли отражение актуальность темы, источниковедческая база, хронологические рамки и степень изученности.

Первая глава «Населенные пункты и оборонительные сооружения» состоит из трех подглав. В главе дана подробная информация о древних поселениях (Гаракёпектепе, Йеддитепе, Нагаратепе, Култепе, Уч тепе и др.) и оборонительных укреплениях.

Вторая глава «Надгробные памятники и мемориальные сооружения» состоит из двух подглав. Здесь исследованы надгробные памятники и похоронные обряды на территории Гуручай и Кёнделенчай в IV-XIII веках.

Третая глава "Хозяйственная жизнь" состоит из четырех подглав. В этой главе дается информация об особенностях развития таких областей сельского хозяйства, как скотоводство, садоводство и огородничество, занимающие важное место в жизни населения бассейна Гуручай и Кёнделенчай в IV-XIII веках. В подглаве «Ремесло» дана информация о различных ремеслах: керамическое производство, металлообработка, производство стеклянных изделии и др. Эти материалы сопровождаются иллюстрациями.

В конце диссертационной работы обобщены и проанализированы все результаты исследования.

*Elgun Mohammadali oghlu Aslanov*

**IV-XIII CENTURY ARCHAEOLOGICAL MONUMENTS OF GURUCHAY AND KONDELENCHAY OF AZERBIJAN (On the basis of the materials of Fizuli region)**

## SUMMARY

Thesis, written on the basis of written sources and archaeological materials, dedicated to research of IV-XIII century archaeological monuments of Guruchay and Kondelenchay.

Thesis, consist of an introduction, three chapters, the result, illustrations, list of abridged words and literature. At the entrance of the theme, source database, chronological framework and level of use are given.

First chapter named residences and defense buildings consist of three half title.

In the first half-title– information was given about urban settlements such as Garakopektepe, Yedditapa and rural settlements such as Nagaratapa, Kultepe, Uctapa. This chapter is about the fortifications.

The second chapter named tombstones and memorial structures, consist of two half-titles.

In the first half-title named tombstones – information given about burial customs, tombstones which existed at different times of the IV-XIII centuries, in Guruchay and Kondelenchay region, Karabakh region.

Third chapter named agricultural life consist of four half-title. In this chapter information was given about agriculture and farming, irrigation systems, work tools that were found in the IV-XIII centuries in Kondelenchay and Guruchay.

In the half- title named handicraft – information was given about different fields of handicraft such as pottery, metalwork, glass and other art fields. There are various forms of handicraft pottery samples and their descriptions are reflected in illustrations.

At the end of the thesis references, images and tables are given.

Tiraj 100. Format 60x84 $^{1}/_{16}$

Azərbaycan Milli Elmlər Akademiyasının mətbəəsi
H.Cavid 115

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ АРХЕОЛОГИИ И ЭТНОГРАФИИ**

***На правах рукописи***

**ЭЛЬГЮН МУХАММАДАЛИ ОГЛЫ АСЛАНОВ**

# АРХЕОЛОГИЧЕСКИЕ ПАМЯТНИКИ БАССЕЙНА ГУРУЧАЙ И КЁНДЕЛЕНЧАЙ IV-XIII ВЕКОВ АЗЕРБАЙДЖАНА

**(на основе материалоа Физулинского региона)**

**5505.02 – Археология**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени**
**доктора философии по истории**

**БАКУ – 2016**